## Azərbaycan dili

1. Bəndlərin birində hər iki söz bir "y" ilə yazılmalıdır.
A) əhəmiyət, vəziyət
B) nəqliyat, milliyət
C) keyfiyət, niyət
D) mədəniyət, fəxriyə
E) ehtiyat, mərsiyə

2. "Tolerantlıq" sözünün səs tərkibi ilə bağlı düzgün fikirləri müəyyən edin.
1. Üç dodaqlanmayan, bir dodaqlanan sait işlənmişdir.
2. Dörd cingiltili, üç kar samit işlənmişdir.
3. Yazılışı və tələffüzü arasında üç fərq var.
4. Saitlərdən biri uzun tələffüz olunur.
5. Saitlə başlayan şəkilçi artırıldıqda sözün yazılışı dəyişir.
A) 1,2,3 B) 3,4,5 C) 1,2,4
D) 2,3,5 E) 1,4,5

3. Bəzi ibtidai xalqlarda tayfanın əcdadı və himayəçisi sayılıb, sitayiş edilən heyvan mənasında olan sözü müəyyən edin.
A) total B) törəniş C) totem
D) aborigen E) dekor

4. Verilmiş nümunədə nöqtələrin yerinə ardıcıl olaraq hansı sözlər və ya ifadələr yazılmalıdır.
..... tərtib olunma, yaranma prinsiplərini öyrənən və öyrədən dilçilik sahəsinə ...... deyilir.
A) sözlərin, leksikologiya
B) lüğətlərin, leksikoqrafiya
C) sözlərin, söz yaradıcılığı
D) sözlərin, morfologiya
E) cümlələrin, sintaksis

5. Verilmiş çoxmənalı sözün izahlarından biri **yanlışdır:**

| | |
|---|---|
| | A) Fiqurda hər hansı xətlərin kəsişdiyi nöqtə |
| Mərkəz | B) Hər hansı bir işin, rəhbərliyin mərkəzləşdiyi yer |
| | C) Hər hansı bir işi idarə edən ali rəhbərlik orqanı |
| | D) Ortada olan, ən mühüm olan |
| | E) Hər hansı bir şeyin orta hissəsi |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

6. Hansı cümlədə yalnız qrammatik mənası olan söz ***işlənməmişdir?***
A) İpin ucunu tapandan sonra iş yaxşı gedər.
B) Yaxşılıq ilə abadlıq əkizdir.
C) İş mənim, qədər Allahın.
D) Qapını tez-tez açın, qoy desinlər, adamı var.
E) Yağ içində böyrək kimi bəslənir.

7. Eyler-Venn diaqramını tamamlayın.
A) yol B) əl C) eyvan
D) gün E) əqrəb

8. Hansı bənddə feil şəklində olmayan frazeologizmlər verilmişdir?
A) ad qoymaq, ağla sığmaq, ad almaq
B) acı söz, sirin söhbət, dərin bilik
C) buynuzu içində, əli qoynunda, ağıl dəryası
D) eyni açılmaq, qanı batmaq, qanı qaynamaq
E) sözün sehri, yüyənsiz danışıq, gözü yolda

9. İşlənmə dairəsinə görə söz qruplarını müəyyən edin:
1. terminlər 2. omonimlər
3. çoxmənalı sözlər 4. ümumişlək sözlər
5. sinonimlər
A) 1,4 B) 2,3 C) 4,5
D) 1,3 E) 2,5

10. Terminlərə aid ***deyil***:
A) emosionallığın olmaması
B) məcaziliyin olmaması
C) elmi üslubun səciyyəvi xüsusiyyətlərindən biri olması
D) elmi üslubdan başqa digər üslublarda işlənə bilməməsi
E) hər bir elm və peşə sahəsinin özünəməxsus terminologiyasının olması

11. Hansı fikirlər "qurtuluş" sözünün leksik təhlilinə aiddir?
1. *Azad olma, nicat tapma* mənalarındadır.
2. Düzəltmə isimdir.
3. *Xilas, nicat, azadlıq* sözləri sinonimləridir.
4. Yazılışı və deyilişində fərq yoxdur.
5. Çoxmənalı söz deyil.
A) 1, 2, 4 B) 1, 3, 5 C) 3, 4, 5
D) 1, 2, 5 E) 2, 3, 4

t.me/BirlikTeamAKaspi

12. Cümlələrin birində fonetik norma **pozulub**:
A) Bəlkə, xoşbəxtliyin də rəngi var?
B) Onlardan biri qadının buz heykəlinə doğru gedir.
C) Əkdiyim şaftalı ağacı qurumuşdu.
D) Xeyli müşahidəçi seçgi prosesini izləyirdi.
E) Göyün üzündə ay olmasına baxmayaraq, çayın vadisi qaranlıq idi.

13. Leksik normanın pozulduğu cümləlri müəyyənləşdirin.
1. O dayanıb ağacın gözəlliyinə tamaşa edirdi.
2. Ağaclar da adamlar kimi pıçıldaşırlar.
3. Xan çıxıb gördü ki, qapını vuran öz kəndlisidir.
4. İllər idi ki, ananın gözü yolda durmuşdu.
5. Dərin-dərin dərələr gördüm orada.
A) 1, 2, 4  B) 2, 4, 5  C) 3, 4
D) 1, 4, 5  E) 2, 3

14. Hansi nümunələrdə qrammatik normanın pozulması var?
1. Bu adamların hamısı gecəni gündüzə qataraq işləmiş, əllərindən gələni əsirgəməmişlər.
2. Torpax ovuclayan qızıl ovuclayar.
3. Vətənim verdi mənə nanu-nəmək.
4. Göy gözlü dənizim üzümə baxır.
5. Nə gözlərim səni görməsin, nə könlüm qubar eyləməsin.
A) 1, 2, 4  B) 3, 4, 5  C) 1, 3, 5
D) 1, 2, 5  E) 2, 3, 4

15. Elmi üslub üçün xarakterik ***deyil***:
A) Şərh etmək
B) Müəyyən bir məsələ haqqında fikir söyləmək
C) Sözün informativ funksiyasından istifadə
D) Mürəkkəb cümlə tiplərindən istifadə
E) Terminlərdən sıx-sıx istifadə

16. Verilmiş xüsusiyyətlər aiddir:
• Əsas müddəalar seçilir.
• Müddəalar düzgün sistemləşdirilir.
• Adətən elmi əsərlərə yazılır.
A) tezisə  B) mətnə  C) esseyə
D) xülasəyə  E) üsluba

17. Nöqtələrin yerinə yazıla bilər:




1. fərdi üslub
2. Ədəbi dil
3. Nitq mədəniyyəti
4. Funksional üslublar
5. Normalara tabedir
A) 1, 2, 3  B) 2, 3, 4  C) 1, 2, 5
D) 2, 4, 5  E) 1, 4, 5

18. Danışıqda işlənən hansı sözlər terminləşə bilər?
1. qarın  2. fonetika
3. çay  4. kardiologiya
5. səs
A) 1,3,5  B) 2,3,4  C) 1,4,5
D) 2,4,5  E) 1,2,3

19. Fikirlərdən biri elmi üsluba aid ***deyil***:
A) Sözlər həqiqi mənada işlənir.
B) Təbiət və cəmiyyət haqqında dəqiq məlumat verir.
C) Dialoqlardan istifadə edilməsi səciyyəvi deyil.
D) Beynəlmiləl terminlərdən istifadə olunur.
E) Terminləri ədəbi dilin normalarına uyğun formalaşdırmağa ehtiyac yoxdur.

20. Lüğətlərə aid fikirlərdən biri **yanlışdır:**
A) Lüğətlərin tərtib olunma, yaranma prinsiplərini öyrənən dilçilik şöbəsi leksikoqrafiyadır.
B) Müəyyən prinsiplə sözlərin cəmləşdiyi kitablardır.
C) Sözlər əlifba sırası ilə verilir.
D) İzahlı lüğətlərdə sözlərin aid olduğu nitq hissəsi və tələffüz şəkli də verilir.
E) İzahlı lüğətlərdə köməkçi nitq hissələrinə aid sözlər də verilir.

21. Hansı sözün kökünün sinonimi yoxdur?
A) müasirlik  B) çağdaş  C) alçak
D) yığılmaq  E) ədəbiyyat

22. Saitlə başlayan şəkilçi artıranda tələffüzündə və yazılışında fərq yaranan sözləri müəyyən edin.
1. çəlik  2. şərik  3. şəfəq
4. yaraq  5. örpək
A) 1, 2, 3  B) 1, 4, 5  C) 2, 3, 4
D) 3, 4, 5  E) 1, 2, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam_Kaspi

*Açıq tipli testlər:*

23. Üslublar haqqında düzgün fikirləri müəyyən edin.
    1. Dil vasitələrindən məqsədyönlü istifadə üsuludur.
    2. Fərdi üslub ictimai baxımdan meydana çıxır.
    3. Funksional üslublar ədəbi dili təşkil edir.
    4. Bütün üslubların fərdisi olur.
    5. Funksional üslublar üçün əsas şərt ədəbi dilin hər üç normasına tabe olmadır.
    6. Cəmiyyətin müxtəlif sahələrində dil vahidlərindən eyni səviyyədə istifadə edildiyi üçün dilin üslubları meydana çıxır.

24. Uyğunluğu müəyyən edin.
    Elmi üslub:

| Düzgündür | Yanlışdır |
|---|---|
| 1. Mürəkkəb cümlə tiplərindən və ara sözlərdən çox istifadə olunur.<br>2. Sözlərin hər üç funksiyasından yetərincə istifadə olunur.<br>3. Ədəbi dilin hər üç normasına tabedir. | 4. Məntiqlilik və ardıcıllıq əsas şərtlərindəndir.<br>5. Alınma terminlərdən istifadə olunur.<br>6. Təbii və sərbəstliyinə görə məişət üslubuna oxşardır. |

25. İsim düzəldən milli şəkilçilərdir:
    1. –dar
    2. –daş
    3. –dan
    4. –laq
    5. –xana
    6. –gil

26. Hansı sıralarda yalnız mürəkkəb isimlər verilib?
    1. açıqürək, ayaqqabı, gülərüz
    2. kitabxana, vətənpərvər, qanunpərəst
    3. top-top, kosa-kosa, aşıq-aşıq
    4. dəvədabanı, ayaqqabı, balıqqulağı
    5. güllü-çiçəkli, səsli-küylü, evli-eşikli

27. Uyğunluğu müəyyən edin.
    1. Əsasını dialoji nitq təşkil edir.
    2. Dilin maksimum mükəmməlliyi əsasdır.
    3. Şərh etmək, nəticə çıxarmaq xarakterikdir.
    a. Bədii üslub
    b. Elmi üslub
    c. Publisistik üslub
    d. Rəsmi-işgüzar üslub
    e. Məişət üslubu

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1_kaspi

***Mətni oxuyun və 28-30-cu sualları cavablandırın.***

**Şirvanşah İbrahim**

**I** Şirvan şahı Huşəngin vaxtında zülm ərşə çıxmışdı. Axırda narazılıq o həddə çatdı ki, xalq üsyan edib Huşəngi taxtdan saldı. Hökmdar edam edildi.

**II** 700 il bundan əvvəl Azərbaycan kiçik dövlətlərə-şahlıqlara bölünmüşdü. Bunlardan biri də Şirvanşahlar dövləti idi.

**III** Əyanlar yeni şah seçmək üçün məşvərətə yığışdılar. Qanuna görə, yeni hökmdar Huşəngin qohumlarından ola bilərdi. Nəhayət, bu fikirdən daşındılar ki, keçmiş şahın uzaq qohumu, Şəkidə yaşayan İbrahimi seçsinlər.

**VI** Sadə təbiətli, zəhmətkeş insan olan İbrahim Şəki kəndlərinin birində yer şumlayır[1], taxıl biçib dərz bağlayırdı.

**V** Bir gün o, zəmidə xeyli işlədikdən sonra bir ağacın kölgəsində uzanaraq yuxuya getdi[2]. Birdən at kişnərtisi, addım səsləri eşidildi.

Gözünü açanda heyrətdən donub[3] qaldı. Saray əyanları onun qarşısında[4] əmrə müntəzir dayanmışdılar. Şirvanın baş qazisi İbrahimin şah seçildiyini elan etdi. Beləliklə, İbrahim Şirvanşahlar taxtına əyləşdi.

28. Mətnin hansı abzasında məzmuna uyğun olmayan fikir verilmişdir?

29. Üzərində rəqəm yazılmış hansı sözlər məcazi mənadadır?

30. Hansı abzasların yeri dəyişilsə, mətnin məzmun ardıcıllığı bərpa olunar?

## Tarix

31. Tarixdə ilk yazılı qanunlar hansı xalq tərəfindən yaradılmışdır?
A) Misir B) Hindistan C) Şumer
D) Çin E) Hun

32. Uyğunluğu müəyyən edin:




A) 2,4,5 B) 2,3,5 C) 1,4,5
D) 1,4,6 E) 1,3,6

33. Qədim Şumer və Qədim Misir üçün oxşar cəhət ***deyil:***
A) Qadınların kişilər ilə bərabər hüquqlara malik olması
B) Riyazi biliklərin mövcud olması
C) Çoxtanrılığın mövcud olması
D) Şəkli yazıdan istifadə
E) Astronomiya sahəsi ilə məşğul olmaları

34. Müstəqil Manna dövlətinin mövcud olduğu dövrə aiddir:
A) Azərbaycanın şimalında müstəqil dövlətin yaranması
B) Kaştaritinin rəhbərliyi altında xalq azadlıq hərəkatı
C) Turukkilərin Şuşarra vilayətini ələ keçirməsi
D) II Kirin Misirə qədər olan əraziləri tutması
E) "Kiçik Midiya"da Qaumata üsyanının baş verməsi

35. Astiaq üçün xarakterikdir:
A) İdarə etdiyi dövlətin sonuncu hökmdarı idi
B) E.ə V əsrin birinci yarısında hakimiyyətdə idi
C) Assuriya ilə müttəfiqlik əlaqələri mövcud idi
D) İskitlər ilə müttəfiq idi
E) Midiyada Assur əleyhinə qalxan üsyançılara kömək etmişdi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

36. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. Romalıların hücumuna məruz qalmışdır
b. Ay məbədinin kahini padşahdan sonra ən hörmətli adam idi
c. Fraaspa döyüşündə qalib gəldi
d. Alan tayfalarının yürüşünə məruz qalmışdır
e. Sərkərdə Pompey ilə saziş imzalamışdı
A) 1-c; 2-b,e; 3-a,d
B) 1-a,b; 2-e; 3-d
C) 1-c; 2-b; 3-a,e
D) 1-b,c; 2-d; 3-a
E) 1-a; 2-b; 3-c

37. Verilmiş xüsusiyyətlərin aid olduğu dövləti paytaxt şəhərinə əsasən müəyyən edin:
*- Cənub qonşusu Selevki dövləti idi*
*- Roma sərkərdəsi Antoninin qüvvələrini məğlub etmişdir.*




A) 5 B) 3 C) 1 D) 2 E) 4

38. Albaniyanın e.ə 60-cı illəri və eramızın 70-ci illəri tarixləri üçün oxşar cəhətdir:
A) Xarici müdaxiləyə məruz qalması
B) Parfiya dövlətinin məğlub edilməsi
C) Yunan işğalçılarına qarşı mübarizə
D) Arşaki sülaləsinin hakimiyyəti ələ keçirməsi
E) Pompeyin yürüşünə məruz qalması

t.me/BilikTeam1_kaspi

39. Hadisə və nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | 359-cu ildə Amid döyüşünün baş verməsi | Sasani-Alban qoşunlarının məğlub edilməsi |
| 2 | I Qoçaq Vaçaqanın Albaniyanın bütün vilayətlərini birləşdirməsi | Mərkəzləşmiş dövlətin yaranması |
| 3 | II Vaçenin Bərdə şəhərini saldırması | Albaniya dövlətinin paytaxtının Qəbələdən köçürülməsi |
| 4 | III Mömin Vaçaqanın taxta çıxması | Xristianlığın dövlət dini elan edilməsi |

A) 1,2 B) 3,4 C) 2,3
D) 2,4 E) 1,3

40. Romanın Respublika dövrü üçün xarakterik *deyil:*
A) German tayfalarının Romaya yürüşlərinin başlanması
B) Makedoniya və Yunanıstanın işğal edilməsi
C) Qay Yuli Sezarın Qalliyadan Romaya yürüşü
D) Romalıların bütün İtaliyanı tabe etməsi
E) Plebeylərin Xalq tribunu seçmək hüququ qazanması

41. Albaniyanın Sasani dövlətinin tabeliyində olduğu dövrdə baş verməyib:
A) Qəbələnin paytaxt şəhər kimi fəaliyyət göstərməsi
B) Sasani şahı I Xosrovun islahatlar keçirməsi
C) Dzirav döyüşünün baş verməsi
D) Məzdəkilər hərəkatının sona çatması
E) Xristianlığın Albaniyada yayılmağa başlaması

42. Hadisələrdən hansılarının yerini dəyişdikdə xronoloji ardıcıllıq düzgün alınar:

| | |
|---|---|
| 1 | Cavanşirin Xəzərlərin vassallığını qəbul etməsi |
| 2 | Kadisiyyə döyüşünün baş verməsi |
| 3 | Varaz Tiridatın Alban hökmdarı elan edilməsi |
| 4 | Albaniyada dövlətçilik ənənəsinin ləğv edilməsi |

A) 3 və 4 B) 1 və 2 C) 2 və 4
D) 1 və 3 E) 1 və 4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

43. Cərmidan və Kadisiyyə döyüşləri üçün oxşar cəhətdir:
A) VII əsrin 40-cı illərində baş vermişdir
B) Döyüşlərdə Alban hökmdarı Cavanşir iştirak etmişdir
C) Ərəblərin qalibiyyəti ilə nəticələnmişdir
D) Xəzərlər məğlub edilmişdir
E) Azərbaycan mərzbanları ilə sülh imzalanmışdır

44. Bəhs edilən müqavilə üçün xarakterikdir:
*644-cü ildə bağlanmış müqaviləyə görə əhali ərəblərin hakimiyyətini qəbul etdi. Ət-Təbəri yazır ki, müqavilənin şərtlərinə görə "gərək hər həddi-büluğa çatan bir dinar və ya onun dəyərində cizyə ödəməli, müsəlmana qarşı səmimi olmalı, ona yolunu göstərməli, bir gün bir gecə evində saxlamalı idi"*
1. Ərəblər ilə Muğan əhalisi arasında imzalanmışdır
2. Müqavilə hökmdar Cavanşir tərəfindən ləğv edilmişdir
3. Bizans imperatoru II Konstantin şərtlərə əməl etmədi
4. Müqavilənin şərtləri pozularsa əhalini daha sərt şərtlər gözləyirdi
A) 1,2 B) 1,4 C) 2,4
D) 1,3 E) 3,4

45. Qay Yuli Sezarın Senatda öldürülməsinə səbəb olan hadisə idi:
A) Ağır yaşayış səviyyəsi və qul üsyanları
B) Germanların Roma əyalətinə yürüşlərinin başlanması
C) Respublikanın monarxiya ilə əvəz edilməsi istəyi
D) Oktavian tərəfindən imperiyanın qurulması
E) Qərbi Roma imperatorunun taxtdan salınması

46. Atropatena və Albaniya dövlətləri üçün *oxşar* cəhətdir:
A) Parfiya tərəfindən süquta uğradılmaları
B) İmperator Adrian ilə dostluq əlaqələrinin mövcud olması
C) Roma ilə siyasi əlaqələrin mövcud olması
D) Paytaxtın həm də zərdüşt dininin mərkəzi kimi fəaliyyət göstərməsi
E) Midiya dövlətinin süqutu nəticəsində meydana gəlməsi

Time.Birlik Team. Kaspi

47. Göstərilən xüsusiyyətlərin aid olduğu ərazini xəritədə müəyyən edin:
*- E.ə VIII əsrdə polis adlandırılan şəhər-dövlətlər meydana gəlmişdir*
*- Ordunun düzülüş qaydası falanqa adlanırdı*




A) 3
B) 4
C) 2
D) 1
E) 5

48. Azərbaycanda feodalizm dövrü üçün uyğun ***olmayan*** bəndi müəyyən edin:
A) Hökmdarların öz yaxın adamlarına bütöv vilayətlər bağışlaması - kənd icmalarının əyanlardan asılılığına düşməsi
B) Vilayət hakimlərinin əllərində olan torpaqları tədricən varislərinə ötürməsi – irsi münasibətlərin yaranması
C) Feodalların torpağını kəndlilərin əkib becərməsi – kəndlilərin təhkimli kəndlilərə çevrilməsi
D) Kəndlilər arasında mülki bərabərsizliyin yaranması – bir qism kəndlilərin xırda torpaq sahiblərinə çevrilməsi
E) III əsrdən Azərbaycanda feodal iqtisadi münasibətlərin yaranması – həm şimal, həm də cənub ərazilərdə feodal münasibətlərin oxşar şəkildə inkişaf etməsi

49. Uyğunluğu müəyyən edin:
1. Paleolit
2. Mezolit
3. Neolit
a. Ataxaqanığının meydana gəlməsi
b. Sümük üzərində işlənmiş incəsənət nümunələrinin meydana gəlməsi
c. İstehsal təsərrüfatına keçidin əsasının qoyulması
d. Torpağın toxa ilə yumşaldılması
A) 1-c; 2-b; 3-a,d
B) 1-a,b; 2-c; 3-d
C) 1-c; 2-d; 3-a
D) 1-c,b; 2-d; 3-a
E) 1-b; 2-c; 3-d

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

50. Səbəb – nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Səbəblər | Nəticələr |
|---|---|---|
| 1 | İsgəndərin yorulmuş ordusunun yürüşü davam etdirməkdən imtina etməsi | İsgəndərin Əhəmeniləri məğlub etdikdən sonra Makedoniyaya qayıtması |
| 2 | Bütün Afina vətəndaşlarının Periklin dövründə idarəetmədə iştirakının genişlənməsi | Hər bir vətəndaşın dövlət idarəçiliyində istənilən vəzifəni tumaq hüququ qazanması |
| 3 | Kiçik Asiyadakı Əhəməni imperiyasına tabe edilmiş şəhər dövlətlərin üsyanına Afina tərəfindən kömək edilməsi | I Daranın Yunanıstana hücum etməsi |
| 4 | III əsrdən Romada daxili ixtişaşlar, müharibə və epidemiya nəticəsində əhalinin sayının azalması | Roma imperiyasının vergi gəlirlərinin artması |

A) 2,3
B) 1,2
C) 1,3
D) 3,4
E) 2,4

51. Qədim Roma memarlığı üçün xarakterik ***deyil:***
A) İmperator Avqustun əmri ilə Roma ətrafında gölün yaradılması
B) Kolizey amfiteatrının ən əzəmətli bina olması
C) Ən çox yayılmış memarlıq abidələri zəfər tağları idi
D) Panteon məbədi
E) Parfenon məbədi

52. Avropa Hun və Ağ Hun dövlətləri üçün oxşar cəhətdir:
1. Qərbi Roma ordusunun məğlub edilməsi
2. IV əsrin ikinci yarısında meydana gəlmələri
3. Göytürk dövləti ilə mübarizədə məğlub olmaları
4. Şimal-qərbi Hindistanın işğal edilməsi
A) Yalnız 2
B) 2,4
C) 1,2
D) Yalnız 1
E) 1,3

*Açıq tipli testlər:*

53. Ötükənin Böyük Hun dövlətinin paytaxtına çevrildiyi əsrə uyğun gəlir:
    1. Böyük Çin səddinin tikintisinə başlanması
    2. Köçəri ari tayfalarının şimal-qərb tərəfdən Hindistana hərəkət etmələri
    3. Çandraquptanın Yunan-Makedoniya işğalına qarşı mübrizə aparması
    4. Hindistanın vahid dövlətdə birləşdirilməsi
    5. Çində "vuruşan padşahlıqlar" dövrünün başlanması

54. Uyğun olmayan bəndi müəyyən edin:

| | | |
|---|---|---|
| 1 | Olimpiya oyunları | 776-cı ildən tanrıların şərəfinə keçirilən idman oyunları idi |
| 2 | Milet şəhəri | Yunan elminin Kiçik Asiyadakı ilk mərkəzi idi |
| 3 | Esxil | İlk yunan pyesinin müəllifi idi |
| 4 | Aqora | İlahə Afinanın şərəfinə tikilən məbəd idi |

55. Patrisilərdən fərqli olaraq plebeylər:
    1. Xalq tribununu seçirdi
    2. Aralarından konsul seçilirdi
    3. Respublika qurulandan sonra müəyyən müddət hüquqsuz idi
    4. Romanın ən qədim sakinlərinin nəslindən idi

56. Qədim Şərqin ilkin şəhər mərkəzlərinə xas xüsusiyyətlərə malik Azərbaycanda yerləşən yaşayış məskənlərini müəyyən edin:
    1. Naxçıvanda Oğlanqala
    2. Qarabağda Üzərliktəpə
    3. Qazaxda Babadərviş
    4. Xaçmazda Sərkərtəpə

57. Uyğunluğu müəyyən edin:
    1. Balamir
    2. Mihiraqul
    3. Ağsuvar xan
    a. Sasani şahı Firuzu məğlub etdi
    b. Ağ Hun dövlətinin ən qüdrətli hökmdarı idi
    c. Alanları qərbə doğru sıxışdırıb Ostqot kralını məğlub etdi
    d. Katalaun döyüşündə Roma ilə üz-üzə gəldi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

Fine/BirlikTeam1 kaspi

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

...Düşmən qüvvələr dəniz qüvvələri vasitəsilə müharibəni uda bilməzdi. Roma da təkcə quru qoşunları vasitəsilə müharibəni uğurla sona çatdıra bilməzdi. Ona görə də birincinin qarşısında döyüşkən piyada qoşunu yaratmaq vəzifəsi meydana çıxdı, ikinci isə qısa müddətdə özünə yeni hərbi gəmilər qayırmaq və dənizçiləri öyrətmək zərurəti qarşısında qaldı. Bu yarışda Roma hərbi xadimləri qalib gəldilər. Romalılar e.ə 260-cı ildə 120 gəmidən ibarət donanmaya sahib oldular. Romalılar dəniz döyüşündə yeni taktika işləyib hazırladılar. Onlar abordaj körpüləri icad etdilər, bu körpülər vasitəsilə düşmən gəmisinə keçir və əlbəyaxa döyüş aparırdılar. Bu yolla romalılar dəniz döyüşündə də öz piyadalarının üstünlüyündən istifadə etməyə başladılar.

58. Tarixi biliklərinizə əsasən mənbədə bəhs edilən müharibənin başlama və bitmə tarixlərini qeyd edin:

59. Mənbədə bəhs edilən müharibənin başlama səbəbini qeyd edin:

60. Tarixi biliklərinizə əsasən mənbədə bəhs edilən müharibənin nəticələrini müəyyən edin: (azı iki nəticə)

## Ədəbiyyat

61. Sərbəst şeir haqqında doğru fikirləri müəyyən edin.
1. Əruz vəzninin bir növüdür.
2. Bu səpkidə yazılmış şeirlərdə müəyyən bir ölçü özünü göstərir.
3. Bu cür şeirlərdə heca vəzninin təsiri aydın hiss olunur.
4. Standart ölçüdən, vəznin tələblərindən kənara çıxılsa da, ahəng tarazlığı müəyyən qədər saxlanılır.
5. Bu şeirlərdə 6-5, 4-4-3 və ya 4-3 bölgülərindən daha çox istifadə edilir.
A) 2,3,4 B) 3,4,5 C) 2,5 D) 1,3 E) 1,2,4

62. Doğru fikri müəyyən edin.
A) Nəzmlə yazılmış əsərlərdə fikir adi danışıq formasında ifadə edilir.
B) Nəzm misra, beyt, bənd əsasında formalaşır.
C) Bir qayda olaraq inversiya nəsrdə daha çox özünü göstərir.
D) Nəsrin intonasiyası nəzmlə eyniyyət kəsb edir.
E) Nəsr misra, beyt, bəndlərdən təşkil olunur.

63. ***Uyğunsuzluğu*** seçin:
A) Epik növ – təsvir və təhkiyə
B) Lirik növ – tərənnüm
C) Heca vəzni – barmaq vəzni
D) Sərbəst şeir – səpkili şeir
E) Əruz vəzni – hecaların sayı

64. Təhkiyə iki şəkildə olur. Bunlar hansılardır?
1. Hadisə danışanın göstərməsi yolu ilə verilir.
2. Hadisə danışanın şahidliyi yolu ilə verilir.
3. Hadisə tərənnüm yolu ilə verilir.
4. Hadisə rəvayət şəklində söylənilir.
5. Hadisə təsvir və tərənnüm yolu ilə verilir.
A) 1,5 B) 2,4 C) 2,5 D) 3,4 E) 1,3

65. Verilən fikirlərdən biri ***yanlışdır:***
A) Klassik poeziyada əsərin həcmi beytlərin sayı ilə göstərilir.
B) Misraları eyni miqdarda hecadan ibarət olan ayrı-ayrı şeirlərdə bölgü müxtəlif yerlərə düşə bilər.
C) Heca vəznində yazılmış şeirlərdə bütün misralardakı hecaların sayca bərabərliyi əsas götürülür.
D) Heca vəzni milli şeir ölçüsüdür və yaranmasına görə ən qədim vəzndir.
E) Uzun və qısa hecaların bir-birini izləməsi ilə yaranan şeirlər yalnız beytlər formasında yazılır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

66. Nöqtələrin yerinə ardıcıl olaraq hansı ədəbiyyatşünaslıq terminləri yazılmalıdır?
*1. Şeirin oxusu zamanı misra daxilində verilən fasiləyə ............. deyilir.*
*2. Eyni ölçülü səslərin bir-birini izləməsinə ........... deyilir.*
*3. Şeirdə tələffüzcə, səs tərkibi etibarı ilə bir-birinə yaxın olan sözlərə ............. deyilir.*
A) qafiyə, ahəng, bölgü
B) bölgü, qafiyə, ahəng
C) ahəng, qafiyə, rədif
D) bölgü, ahəng, qafiyə
E) rədif, qafiyə, bölgü

67. Süjet və kompozisiya ilə bağlı ***yanlışdır:***
A) Süjet fransız sözü olub təsvir olunan mahiyyət, hadisənin özüdür.
B) Süjet və kompozisiya daha çox epik əsərlərlə bağlı olan anlayışlardır.
C) Kompozisiya ilə qurulan əsər bədii cəhətdən daha qüvvətli olur.
D) Süjet hadisənin özüdürsə, kompozisiya hadisələrin əlaqələndirilməsidir.
E) Süjetin mərhələləri dəyişmək, birini o birinin qarşısına keçirmək əsər üçün problem yaratmır.

68. Mövzu haqqında verilənlərdən biri doğrudur:
A) Eyni mövzuda müxtəlif müəlliflər əsər yaza bilməz.
B) Əsərdə yalnız bir mövzu ola bilər.
C) Mövzu anlayışı tarixi xarakter daşıyır.
D) Mövzu ideyaya əsasən müəyyən olunur.
E) Eyni mövzulu əsərlər müxtəlif formalarda yazıla bilməz.

69. Gülüş anlayışı ilə bağlı fikirlərdən hansı ***yanlışdır?***
A) Sənətkarın hər hansı hadisəyə olan münasibətidir.
B) Satira və yumor gülüşün növləridir.
C) Satira ifşaedici gülüş hesab olunur.
D) Şifahi xalq ədəbiyyatında gülüşdən istifadə olunmur.
E) Gülüş bədii əsərdə təsvir olunan obraza qarşı yalnız mənfi münasibəti əks etdirmir.

70. Ədəbi növlərlə bağlı ***yanlış*** fikri müəyyən:
A) Bədii əsərdə hadisənin oxucuya danışılması, nəql edilməsi təhkiyədir.
B) Hər hansı hadisənin doğurduğu hiss-həyəcanın müsbət planda ifadəsi tərənnümdür.
C) Danışıq və hərəkətləri əyani şəkildə oxucuya çatdırılması, əyani göstərmə üsuludur.
D) Əksetdirmə üsullarından asılı olmadan ədəbi əsərlər üç yerə ayrılır.
E) Təhkiyə epik növün əsas xüsusiyyətidir.

71. Dram janrı ilə bağlı fikirlərdən biri ***yanlışdır:***
A) Dramlarda komik səhnələrə də yer verilir.
B) Bu janrda yazılmış əsərlərin süjet xətti ciddi münaqişə üzərində qurulur.
C) Dram yunan sözüdür, mənası hərəkət deməkdir.
D) Dramlar nəsrlə yazıldığı kimi, nəzmlə də yazıla bilər.
E) Müxtəlif qüvvələrlə toqquşma dramda, əsasən, baş qəhrəmanın məğlubiyyəti ilə nəticələnir.

72. Hansı janrda misradaxili bölgü bütöv söz prinsipinə ***əsaslanmır?***
A) Qoşma
B) Təcnis
C) Bayatı
D) Qəzəl
E) Gəraylı

73. Verilmiş nümunə ilə bağlı doğru fikri müəyyən edin.
*Siyah zülfün nə tökübsən yana sən,*
*Ya hurisən, ya pərisən, ya nəsən?*
*Demədim ki, eşq oduna yanasan,*
*Mən dedim ki, dur qıraqda, bir insan*
1) Birinci misrada epitet işlənmişdir.
2) Cığalı təcnisdir.
3) Cinas qafiyələrdən istifadə edilmişdir.
4) Heca vəznindədir.
5) Misradaxili bölgüsü bütün misralarda eyni deyil.
A) 1,5 B) 4,5 C) 2,3 D) 3,4 E) 3,4,5

74. *"O nə quşdu ildə çəkər bir qiyyə,*
*Qiyyəsində yüz min nahaq qan olu?*
*Nə qaladı dörd yüz qırx dörd bürcü var,*
*Onda üç yüz altmış altı xan olu?"* *(A.Ələsgər)*
Nümunəyə əsasən uyğunluğu müəyyən edin.

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Qoşmanın məzmunca növünə aid olan bənddə bədii sual işlənib.<br>2. Nümunədə söylənilən fikrin cavabı forma və qafiyə baxımından suala uyğun gəlməlidir. | 3. Nümunədə inversiya, metafor kimi bədii təsvir vasitələri işlənib.<br>4. Tam qafiyələrdən sonra işlənmiş **Olu** sözü rədifdir. |

A) 2,3 B) 1,2 C) 1,4 D) 1,3 E) 3,4

75. Cədvəli tamamlaya bilən fikirləri müəyyən edin.

| | |
|---|---|
| **Əruz vəzni** | Bu şeir vəzninə epik şeir örnəklərində rast gəlinmir. |
| | |
| | |

1. İlk dəfə sistemləşdirilərkən 11 bəhri sistemləşdirilib.
2. Əruzda da misralardakı hecalar əsas götürülür.
3. Əruz vəznində misradaxili bölgü zamanı bütöv söz prinsipi pozula bilər.
4. Əruzda yazılan şeirlərdə misralardakı hecaların sayı fərqli ola bilər.
A) 1,2 B) 3,4 C) 1,4 D) 2,3 E) 1,3

76. Aşağıdakı müqayisələrdən hansı doğrudur?
A) *Qəsidə və qəzəl:* Eyni şeir vahidindən istifadə olunmasa da, şəkilləri eynidir.
B) *Facıə və komediya:* Müəllif hadisələrin gedişinə müdaxilə edə bilər.
C) *Povest və hekayə:* Hadisələr obrazların nitqləri vasitəsilə çatdırılır.
D) *Tuyuq və müxəmməs:* Heca vəznində yazılması mümkündür.
E) *Poema və təmsil:* Müəyyən süjet xəttinə malik olur.

77. Həyatı əksetdirmə üsulu verilmiş nümunə ilə eyni olan janr hansı bənddə verilmişdir?
**Hacı Murad -** *...Nə buyurursunuz, ağa? ...*
**Fəxrəddin bəy** – *Nə var, nə yox, Hacı Murad? Hakim mənzilindən razıdırmı? Mollanın kefi necədir?*
**Hacı Murad** - *Molla uşaqlarla dərsdən sonra uşaq kimi oynayır. Hakim mənzilindən çox razıdır.*
A) memuar B) hekayə C) dram
D) povest E) roman

78. Məsnəvi haqqında ***yanlış*** fikri müəyyənləşdirin.
A) Məsnəvinin bütün beytlərinin qafiyələnməsi qəsidə janrının ilk beyti ilə eynidir.
B) Bayatı kimi, məsnəvi də şeir şəkli kimi çıxış edə bilir.
C) Şeir şəkli qitə ilə eynidir.
D) Bütün məsnəvilərdə 22-23 və ya 38-39-cu misralar həmqafiyədir.
E) Qafiyə quruluşu digər ikilik şəklində olan janrlardan fərqlənir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam - Kasp

79. Venn diaqramının kəsişməsinə yazıla bilər:




A) Hər ikisi aşıq şeir üslubunun janrıdır.
B) Hər ikisində sonda müəllifin adı verilə bilir.
C) Qəzəl kimi, qoşmada ictimai mövzular ön planda ola bilmir.
D) Şeir vahidləri fərqli olsa da, eyni vəzndə yazılır.
E) Hər ikisində ən yaddaqalan beyt "şah beyt" adlanır.

80. Hansı bənddə verilən anlayışların hər ikisi qeyd olunan janrda işlənə bilər?
A) ***povestdə;*** dialoq və remarka
B) ***qəsidədə;*** kulminasiya və rədif
C) ***təmsildə;*** proloq və remarka
D) ***romanda;*** mətlə və məqtə
E) ***dramda;*** remarka və qafiyə

81. ***Yanlış*** fikri müəyyən edin:
A) Şeir şəkilləri hər bənddəki misraların sayına görə müəyyən olunur.
B) Sonda müəllifin adı və ya təxəllüsü çəkilən bənd məqtə bənd adlanır.
C) Epik təhkiyə və lirik təqdimatın vəhdətdə verildiyi yazılı ədəbiyyat nümunəsi məsnəvi ilə də yazıla bilər.
D) Klassik şeir sayılan və mövzusu ölüm-itimlə bağlı olan janr ikilik şəklində yazılır.
E) Bayatının bəndlərindəki misraların sayı rübainin bəndlərindəki misraların sayı ilə eynidir.

82. ***Uyğunsuzluğu*** müəyyən edin.
A) peyzaj - təbiət təsviri
B) proloq - əsərin əvvəlində və oxucunu danışılacaq hadisə ilə yığcam şəkildə tanış edən hissə
C) tip - ümumiləşdirmə baxımından diqqət cəlb edən surət
D) xarakter - əsərin mərkəzində dayanan obraz
E) lirik ricət - epik əsərlərdə olur, hadisəni yarıda saxlayıb lirik nümunə əlavə olunur.

83. Ədəbi növlərlə bağlı ***səhv*** fikirləri müəyyən edin.
1. Hekayələr nəzmlə yazıldıqda lirik, nəsrlə yazıldıqda epik növə aid olur.
2. Povestlər həmişə nəsrlə yazılır.
3. Epik növə aid əsərlərdə qafiyədən istifadə edilmir.
4. Remarka dramatik növün göstəricisidir.
5. İki fərqli ədəbi növdə yazan sənətkarlarımız yoxdur.

84. Nəzm haqqında ***səhv*** fikirləri müəyyən edin.
1. Tərənnüm əsasında qələmə alınan əsərlərdə sözlər dilin qrammatik tələbinə uyğun şəkildə sıralanır.
2. Təhkiyə əsasında yazılan əsər nəzmlə yazıla bilməz.
3. *Ölçü, qafiyə, rədif, bölgü* nəzmin əsas əlamətləri sırasına daxildir.
4. "Bölgü" yerinə "təqti", "sezura", "duraq" terminləri də işlədilə bilər.
5. Ədəbiyyatımızda epik növün hekayə, povest, roman, dramatik növün isə komediya, dram və faciə janrlarının nəzmlə yazılmış nümunələri vardır.

85. Eyler-Venn diaqramına əsasən doğru cavabı müəyyən edin.
I- Hekayə
II – Povest




86. Qafiyə quruluşuna görə uyğunluq ***pozulub***.
1. Rübai – bayatı
2. Qəzəl - qitə
3. Müxəmməs – təxmis
4. Qoşma - gəraylı
5. Tuyuq - mürəbbe
6. Məsnəvi – qəzəl

87. Uyğunluğu müəyyən edin.
1. Ədəbi cərəyan
2. Bədii yaradıcılıq metodu
3. İdeya
a. həyat hadisələrini təsvir etmək və onları ümumiləşdirmək üçün yazıçının əsas götürdüyü prinsip
b. qismən məhdud anlayış olduğu üçün hər hansı bir xalqın ədəbiyyatında yaranmaya və geniş yayılmaya bilər.
c. konkret tarixi şəraitlə əlaqədar yaranır
d. sənətkarın yaradıcılığının davam etdirilməsi ənənəsidir.
e. qələmə aldığı həyat hadisəsi haqqında yazıçının gəldiyi fikir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam_Kaspi

***Sizə təqdim olunmuş nümunəni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

**KÖNÜLSÜZ OLANDA**

İnciyib odlara salma könlümü,
Qəzəb duyğulardan bir tonqal qalar.
Gördün fikirliyəm alma könlümü.
Əllərin havadan asılı qalar.

Burax fikirlərin qoynuna məni,
Gözləmə əlacsız təbəssümləri.
Axşam görərsən ki, güldürüb səni,
Yeni bir şeirlə dönmüşəm geri.

Min gücün dizini bir hiylə bükər,
Bir bağlı qönçədə min hikmət yatar.
Bir gülə könülsüz toxunsam əgər,
Ləçəklər tikan tək əlimə batar.

(N.Kəsəmənli)

88. Şeirdə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyən edin, əsərdən nümunə ilə əsaslandırın.

89. Mətnə əsasən doğru hesab etdiyiniz xananı seçin və seçiminizi əsaslandırın.

| Fikir | Əsaslandırma |
|---|---|
| ☐ Tərənnüm əsasında yazılmışdır. | |
| ☐ Təhkiyə əsasında yazılmışdır. | |
| ☐ Göstərmə əsasında yazılmışdır. | |

90. Nümunənin forma və məzmun xüsusiyyətlərinin hər birinə aid fikir yazın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TimerBilikTeam1 kaspi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1 kaspi

## Coğrafiya

61. Dünya xəritəsi hansı miqyasda tərtib olunsa, ümumiləşdirmə daha çox olar ?
A) 1: 25 000 000 B) 1: 22 000 000
C) 1: 27 500 000 D) 1: 100 000 000
E) 1: 20 000 000

62. Şəkildə Yerin hansı təsvir forması verilmişdir ?



A) Sferoid B) Geoid C) Kürə
D) Tetraedr E) Ellipsoid

63. A və B məntəqələri arasındakı məsafəni hesablayın.




A) 2222 km B) 4440 km C) 6666 km
D) 8880 km E) 5124 km

64. Aşağıdakı xüsusiyyətlər coğrafi şəbəkənin hansı elementi üçün doğrudur ?
- *Qütblərdən eyni məsafədə yerləşir*
- *Yer kürəsinin tənböləni adlandırılır*
- *Bakıdan ən qısa məsafəsi 4444 km-dir*

A) $23,5^0$ c. e. B) $0^0$ e. C) $80^0$ şm. e.
D) $0^0$ u. E) $180^0$ u

65. Doğru ***olmayan*** variantı seçin.
A) Generalizasiyanın kəmiyyəti miqyasdan asılıdır
B) Qlobusda sahə, bucaq, forma və uzunluq təhrifləri olur
C) Təhrifin növü proyeksiyadan asıldır
D) Böyük miqyaslı xəritələrdə təhrif daha az olur
E) Xəritələrdə baş miqyas təhrifsiz xətt və nöqtə üçün doğru olur

66. Dərəcə toruna malik ***olmayan*** kartoqrafik təsvir vasitəsi :
A) Qlobus
B) Yarımkürələr xəritəsi
C) Topoqrafik xəritə
D) Məhəllin planı
E) Dünyanın siyasi xəritəsi

67. Proyeksiya növünə əsasən sıfır təhrifi müəyyən edin.




A) Ekvator
B) Şimal tropiki
C) $90^0$ şm.e
D) $30^0$ c.e
E) Cənub qütbü

68. 135° azimutla 3 km hərəkət edən səyyah ən qısa yolla hansı azimut və istiqamətlə geri qayıdar?
A) 45° , şimal-şərq B) 225° , cənub-qərb
C) 315°, şimal-qərb D) 180° , cənub
E) 270° , qərb

69. Uyğunluğu müəyyən edin.
1. Şimal və Qərb yarımkürəsi
2. Cənub və Şərq yarımkürəsi




A) 1- a,d 2-b,c,e B) 1- a,c,d 2-b,e
C) 1- c,e 2-a,b,d D) 1- b,e 2-a,c,d
E) 1- a,b,d 2-c,e

70. Sxemdə verilmiş şərti işarə hansı coğrafi obyektin təsviridir?



A) bataqlığın
B) qumluğun
C) şoranlığın
D) kolluğun
E) qırılmış meşənin

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1 Kaspi

71. A və B nöqtələrinin hündürlük fərqini müəyyən edin.




A) 0 m B) 100 m C) 25 m
D) 75 m E) 50 m

72. Venn diaqramında hansı kartoqrafik təsvir vasitələrinin oxşar və fərqli xüsusiyyətləri verilmişdir?




A) I – xəritə II – qlobus
B) I – plan II – qlobus
C) I – plan II – xəritə
D) I – qlobus II – plan
E) I – xəritə II- plan

73. Eyni sürətlə uçan təyyarə hansı istiqamətdə uçuşu daha tez başa vurar ?




A) A – B B) B - C C) A – D
D) A – C E) C - D

74. Azərbaycanla eyni enlikdə yerləşən ölkələr:
A) Ukrayna, Türkiyə, Rusiya
B) İspaniya, Yunanıstan, Hindistan
C) İtaliya, Almaniya, Yaponiya
D) Portuqaliya, Türkiyə, Türkmənistan
E) Pakistan, ABŞ, Böyük Britaniya

75. Miqyasız şərti işarələri seçin.

1. zavod 2. bulaq 3. göl
4. körpü 5. kanal 6. bağ

A) 1,4,5 B) 2,3,5 C) 1,2,4
D) 2,4,6 E) 1,3,6

76. Sxemə əsasən cədvəldəki uyğunluğu müəyyən edin.




| Doğru | Yanlış |
|---|---|
| 1. Kəsmə yüksəkliyi 20 m-dir | 4. Təpənin nisbi hündürlüyü 105 m-dir |
| 2. Çökəkliyin dərinliyi 40 m-dir | 5. Çökəkliyin dərinliyi 64 m-dir |
| 3. Horizontallar 15 m-dən bir çəkilmişdir | 6. Şimal-şərq istiqamətində meyillik azdır |

A) 1,3,5 B) 2,4,6 C) 3,4,6
D) 1,2,4 E) 2,3,5

77. Afrika materiki üçün doğru ***olmayan*** əlamət:
A) Dörd yarımkürədə yerləşir
B) Şimal və Cənub tropik xətləri ilə kəsilir
C) Ekvator xətti ilə kəsilir
D) Sahilləri iki okean suları ilə yuyulur
E) Xəritəsi əsasən konus proyeksiyası ilə hazırlanır

78. Miqyası 1: 600 000 olan xəritə üzərində qoyulmuş paletkaya əsasən rənglənmiş ərazinin həqiqi sahəsini tapın (1 paletka daması 0.25 $sm^2$ -dir).



A) 252 $km^2$ B) 28 $km^2$ C) 168 $km^2$
D) 42 $km^2$ E) 1008 $km^2$

79. Yarımkürələr xəritəsində okean cərəyanları, səyyahların səyahət marşrutları hansı təsvir üsulu ilə göstərilir ?
A) nöqtələr
B) izoxətlər
C) hərəkət xətləri
D) areal
E) keyfiyyət fonu

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam Kaspi

80. A nöqtəsinin coğrfi koordinatlarını təyin edin.




A) 40° c.e 90° ş.u
B) 70° şm.e 90° ş.u
C) 40° şm.e 90° q.u
D) 40° c.e 90° q.u
E) 40° şm.e 75° ş.u

81. Verilmiş xəritə hansı kartoqrafik proyeksiyada tərtib olunmuşdur ?




A) silindrik B) azimutal C) konus
D) çoxüzlü E) bərabəraralıqlı azimutal

82. Bakıdan $0^0$ azimutla $10^0$ , sonra $90^0$ azimutla $20^0$ gedən müşahidəçinin çatdığı məntəqənin coğrafi koordinatlarını və həmin məntəqənin yerləşdiyi ölkəni müəyyən edin.
A) 60° şm.e 160° ş.u , Çin
B) 50° şm.e 70° ş.u , Qazaxıstan
C) 40° şm.e 140° ş.u , Rusiya
D) 40° şm.e 70° ş.u , Türkmənistan
E) 50° şm.e 30° ş.u , Ukrayna

**Açıq tipli test sualları:**

83. ABCD xəttinin uzunluğunun 16681 km olduğunu bilərək B və C nöqtələri arasında qalan paralel qövsünün dərəcə qiymətini hesablayın (Nəzərə alın ki, $1^0$- lik meridian qövsünün uzunluğu 111,1 km, ekvatorda $1^0$- lik qövsün uzunluğu 111,3 km-dir).




84. Həqiqi ölçüləri verilmiş ərazinin xəritədəki sahəsi neçə $sm^2$-dir?




85. Düzgün coğrafi ifadələri müəyyən edin.
1. Eyni enlikdə yerləşən məntəqələr bir-birindən $90^0$ və $270^0$ azimutda yerləşirlər
2. Miqyas böyüdükcə kartoqrafik təsvirlərin dəqiqliyi azalır
3. Coğrafi uzunluğun dərəcə qiyməti 0° - 180° arasında dəyişir
4. Başlanğıc meridiandan müəyyən yerə qədər paralel qövsünün dərəcələrlə kəmiyyətinə coğrafi uzunluq deyilir
5. Meridian qövsünün ekvatordan müəyyən yerə qədər dərəcələrlə kəmiyyəti coğrafi uzunluq adlanır

86. Generalizasiyanın artmasına görə xəritələrin ardıcıllığını müəyyən edin.
1. 1: 2 000 000 2. 1: 22 000 000
3. 1: 550 000 4. 1: 100 000

87. Uyğunluğu müəyyən edin.
1. Topoqrafik xəritələr
2. İcmal xəritələr
3. İcmal-topoqrafik xəritələr
a. 1: 37 000 000
b. 1: 25 000
c. 1: 550 000
d. 1: 150 000
e. 1: 1 700 000

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BilikTeam1 Kaspi

## *Situasiya*

***Aşağıda verilmiş şəhərlərin coğrafi mövqeyinə əsasən tapşırıqları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

**Bakı** - 40º şm.e 50º ş.u
**Pekin** - 40º şm.e 116º ş.u
**Samara** - 53º şm.e 50º ş.u
**Madrid** - 40º şm.e 4º q.u

88. Pekin, Samara və Madrid şəhərlərinin ***Bakıdan*** hansı istiqamət və azimutda yerləşdiyini cədvəldə qeyd edin.

| ***Şəhərlər*** | ***Bakıdan yerləşdiyi istiqamət və azimut*** |
|---|---|
| Pekin | |
| Samara | |
| Madrid | |

89. Bakıdan şəhərlərə uçan təyyarənin uçduğu müddətdə qütb ulduzu onun hansı tərəfində qalacaq ?

Bakı→Pekin –
Bakı→Madrid –
Bakı→Samara –

90. Bakı ilə digər şəhərlər (Pekin, Samara, Madrid) arasındakı ən qısa məsafəni hesablayın. (Nəzərə alın ki, 40º enlikdə 1º-lik paralel qövsü 85 km, 1º-lik meridian qövsü isə 111 km-dir.)

| ***Şəhərlər*** | ***Bakı şəhəri ilə aralarındakı ən qısa məsafə*** |
|---|---|
| Pekin | |
| Samara | |
| Madrid | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1 Kaspi